# Uğurlu beynəlxalq əməkdaşlığın göstəricisi

## *Azərbaycan Qoşulmama Hərəkatının prinsiplərinə sadiq olduğunu bütün dünyaya göstərir*

Müasir dünyada öz aktuallığını daha da artıran Qoşulmama Hərəkatının əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etməkdir.

Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətlidir. Qoşulmama Hərəkatında 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat isə Qoşulmama Hərəkatı yanında müşahidəçi statusuna malikdir. Azərbaycan Qoşulmama Hərəkatının 2011-ci ildən tamhüquqlu üzvüdür.

Respublikamız Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin toplantısına və 2019-cu ildə Bakıda keçiriləcək zirvə görüşünə evsahibliyi, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik etməklə onun məqsəd və məramlarının təşviqinə, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın gücləndirilməsinə əsaslı töhfəsini verəcək. 2019-cu ildə Bakıda keçiriləcək Qoşulmama Hərəkatının XVIII sammiti böyük rəmzi məna daşıyır. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad sammitindən 30 il sonra Qoşulmama Hərəkatında iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən evsahibliyi edəcək. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya göstərəcək.

Aprelin 5-i Bakı Konqres Mərkəzində keçirilən “Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi” mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransında dünyada sülhün, təhlükəsizliyin, əməkdaşlığın təbliği, müasir dövrdə bəşəriyyətin qarşılaşdığı problemlərin həlli, mədəniyyətlər və sivilizasiyalar arasında münaqişələrin, terrorizmin, transmilli cinayətkarlığın qarşısının alınması və digər əhəmiyyətli məsələlər müzakirə olundu.

Nazirlər konfransında Qoşulmama Hərəkatında iştirak edən, həmçinin bu qurumun yanında müşahidəçi statusu almış dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri olmaqla ümumilikdə 800-dən artıq şəxs iştirak etdi.

Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Xorxe Arreasa Monserrat çıxışında bəşəriyyətin çox dinamik və mürəkkəb vəziyyətlə üz-üzə qaldığını, bəzi ölkələrin yürütdükləri siyasətin getdikcə daha da eqoist və qərəzli olduğunu diqqətə çatdırdı. Bildirdi ki, reallıqda kompleks yanaşma olmalı, eyni zamanda, dialoq və həmrəylik ruhu hökm sürməlidir: “Bu proses razılaşdırılmış addımlar üçün səmərəli siyasi platforma olan Qoşulmama Hərəkatının strukturunun gücləndirilməsi istiqamətində irəliləməlidir ki, qərarlar beynəlxalq səviyyədə müsbət təsir, sözün əsl mənasında, həqiqi təsir göstərə bilsin. Bizim bərabərlik, ölkələrin daxili işlərinə qarışmama, ərazi bütövlüyü prinsiplərini, bütün mədəniyyətlər, dinlər və sivilizasiyalara hörmət, insan haqları və fundamental azadlıqlar, o cümlədən sülh hüququ və inkişaf hüququna hörməti bir daha təsdiqləməyimiz bu gün hər zaman olduğundan daha vacibdir. Bizim üçün əsas məsələ davamlı inkişafa nail olmaqdan ötrü sülh və beynəlxalq təhlükəsizliyin təbliğidir. Bu, bizim apardığımız müzakirələrdə olduqca böyük əhəmiyyət kəsb edir. Biz birlikdə BMT-nin Nizamnaməsinin əsas prinsiplərini rəhbər tutaraq beynəlxalq sülh və təhlükəsizliyi, o cümlədən insan haqlarının inkişafını gücləndirmək arzusundayıq”.

Nüvə silahlarının yayılmamasına dair qəbul olunan sazişin əhəmiyyətini vurğulayan Xorxe Arreasa Monserrat bütün üzv ölkələrin sülh yolunda və Qoşulmama Hərəkatının tam canlandırılması istiqamətində birlikdə addımlamalı olduğunu, qurumun dünyada gedən mənfi təzahürlərin qarşısının alınmasında böyük rol oynadığını söylədi.

Konfransa sədrlik edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qoşulmama Hərəkatının əhəmiyyətli forum kimi dünyada sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində gördüyü işlərdən danışdı. Qeyd etdi ki, beynəlxalq və yerli səviyyələrdə qanunun aliliyinə hörmət dünyada təhlükəsizlik üçün çox vacibdir. O, Azərbaycanın BMT-nin aparıcı rolunu dəstəklədiyini, beynəlxalq sülhün və təhlükəsizliyin, insan hüquqlarının təmin olunmasına öz töhfəsini verdiyini vurğuladı.

Bu gün dünyanın müxtəlif yerlərində silahlar susmur. Müharibələrdə, terror hadisələrində günahsız insanlar şəhid edilir. Münaqişələr yalnız baş verdiyi regionlarda deyil, beynəlxalq aləmdə təhlükəsizliyə ciddi maneələr yaradır. Azərbaycan da işğala məruz qalmış ölkədir. Hələ də Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımız mütəmadi atəşə tutulur, yurddaşlarımız şəhid olur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması həm də regionda əməkdaşlığa və inkişafa ciddi maneədir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeydşərtsiz çıxarılması ilə bağlı iyirmi beş il əvvəl dörd qətnamə çıxarıb. Digər beynəlxalq təşkilatlar da Azərbaycanın ərazi bütövlüyünü tanıyan və işğalı pisləyən qərar və qətnamələr qəbul ediblər. Lakin Ermənistan bu qətnamələrin tələblərinə məhəl qoymayaraq iyirmi beş ildən artıqdır torpaqlarımızın 20 faizini işğal altında saxlayır. Elmar Məmmədyarov bu faktları bir daha diqqətə çatdırdı. O, Qoşulmama Hərəkatının nazirlər konfransının beynəlxalq səviyyədə sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyinə əminliyini ifadə etdi. Bildirdi ki, Azərbaycan bu mötəbər təşkilata sədrliyi dövründə üzv ölkələrdə münaqişələrin həllinə kömək göstərəcək.



Nazir respublikamızın regionda əməkdaşlığa və iqtisadi inkişafa böyük əhəmiyyət verdiyini, irimiqyaslı layihələr həyata keçirdiyini də vurğuladı.

Azərbaycanın bugünkü inkişafı, həmçinin dünyada sülhün, təhlükəsizliyin qorunmasında rolu konfrans iştirakçıları tərəfindən xüsusi qeyd edildi. BMT Baş Assambleyasının 72-ci sessiyasının sədri Miroslav Layçak Qoşulmama Hərəkatının dünyada sülhün və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətini vurğulayaraq, Azərbaycanın belə mötəbər tədbirə yüksək səviyyədə evsahibliyinə görə minnətdarlığını bildirdi.

“G77”nin hazırkı sədri, Misirin BMT yanında daimi nümayəndəsi Mohamed Fathi Ahmed Edrees də konfransın yüksək səviyyədə təşkilinə, eləcə də Azərbaycanın sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində göstərdiyi səylərə görə Azərbaycan rəhbərliyinə və Xarici İşlər Nazirliyinə təşəkkür etdi. O, Qoşulmama Hərəkatının dünyada sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində sıx əməkdaşlığın təşviqinə söykənən fəaliyyətini yüksək qiymətləndirdi. Bildirdi ki, dünya ölkələri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 17 hədəfinə sadiq qalmaq, xüsusilə yoxsulluğu aradan qaldırmaq üçün səylərini artırmalıdır.

Ölkə başçısı çıxışında bildirdi ki, dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı yarım əsrdən çoxdur bəşəri dəyərləri təbliğ edir, sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynayır. O, Qoşulmama Hərəkatının beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiq olduğunu bildirdi: “Azərbaycan Qoşulmama Hərəkatının nisbətən yeni üzvüdür. Biz bu ailəyə 2011-ci ildə qəbul olunduq, dərhal təşkilatın və onun üzvlərinin dəstəyini hiss etməyə başladıq. Bu dəstək Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi proseduru zamanı nümayiş olundu.

Azərbaycan özünün tarixi ilə qürur duyur. Müxtəlif dinlərin nümayəndələri ölkəmizdə əsrlər boyu sülh və ləyaqət şəraitində yaşayıblar. Bu gün bizim tarixi abidələrimiz həmin mədəni müxtəlifliyi özündə əks etdirir. Bizim gücümüz mədəni müxtəlifliyimizdədir. Multikulturalizmin alternativi yoxdur”.

Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin şərəfinə təşkil olunmuş mərasimdə çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva vurğuladı ki, Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransına evsahibliyi etməklə Azərbaycan təşkilat çərçivəsində həmrəyliyin möhkəmləndirilməsi işinə töhfəsini bir daha nümayiş etdirir. Birinci vitse-prezident gələn il Azərbaycanın təşkilata sədirlik etməsini Qoşulmama Hərəkatı üzvlərinin ölkəmizə etimadının, eyni zamanda, respublikamızın beynəlxalq aləmdəki yüksək nüfuzunun göstəricisi kimi dəyərləndirdi: “Biz hər zaman humanizmin, dialoq və həmrəyliyin təbliği üçün əlimizdən gələni etmişik. Siyasətimizin əsas prinsiplərindən biri etnik, dini və sosial mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar üçün bərabər hüquqların təmin edilməsidir. Bu prinsip 100 il bundan əvvəl - 1918-ci ildə Azərbaycan müsəlman dünyasında ilk parlamentli respublikanı yaradan zaman müəyyən olunmuşdu. Bu, Azərbaycan Xalq Cümhuriyyəti idi. Həmin vaxt Azərbaycan həm kişilərə, həm də qadınlara siyasi hüquqlar verən ilk müsəlman ölkəsi oldu”.

Sivilizasiyalararası dialoqda oynadığı fəal rolu sayəsində bu gün Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Ölkəmizdə qlobal problemlərin müzakirəsi məqsədilə çox sayda müxtəlif beynəlxalq tədbirlər təşkil edildiyini nəzərə çatdıran Mehriban Əliyeva buna misal olaraq 2018-ci ildə 10 ili tamam olan “Bakı Prosesi”ni göstərdi. Həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan azsaylı ölkələrdən birində - Azərbaycanda “Bakı Prosesi” İslam və Qərb sivilizasiyaları, xalqları və mədəniyyətləri arasında dialoq və əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıyır. 2019-cu ildə isə Bakı Qoşulmama Hərəkatı ölkələrinin sammitinə evsahibliyi edəcək. Azərbaycanın Birinci vitse-prezidenti dedi: “Növbəti üç il ərzində Azərbaycan bu mühüm təşkilata sədrlik edəcək. Bütün bu addımlar, o cümlədən Bakıdakı bu konfrans bir daha bizim uğurlu əməkdaşlığımızı sübut edir.

Azərbaycan “Expo 2025” Ümumdünya Sərgisinə evsahibliyi etmək üçün namizədliyini irəli sürüb. 2000-ci ildən ölkəmiz “Expo” hərəkatının fəal üzvüdür. Bizim milli pavilyonlarımız 2015-ci ildə Milanda, 2016-cı ildə Antalyada və 2017-ci ildə Astanada mükafatlar alıb”.

Mehriban Əliyeva mötəbər beynəlxalq tədbirlərin təşkilində böyük təcrübəyə malik Azərbaycanın “Expo 2025”ə yüksək səviyyədə evsahibliyi etməyə hazır olduğunu diqqətə çatdırdı: “Bu gün texnologiyanın insanlara təsiri dünyanın əsas çağırışlarından biridir. Ona görə də “İnsan kapitalını inkişaf etdirərək daha yaxşı gələcək quraq” mövzusu tərəfimizdən “Expo 2025” üçün seçilmişdir. Biz insanları - insan kapitalını, dünyanın ən güclü ehtiyatını bəşəri debatın mərkəzinə qoyacağıq”.

Bakıdakı “Expo” Ümumdünya Sərgisi həmçinin təşkilata yeni bazarda yeni auditoriyalarla əlaqə saxlamaq imkanı yaradacaq.

Azərbaycanın Birinci vitse-prezidenti qürurverici bir məqamı da açıqladı ki, namizədliyimiz qalib gələrsə, Azərbaycan bütün Şərqi Avropa, Qafqaz və Xəzər regionunda “Expo” Ümumdünya Sərgisinə evsahibliyi edəcək ilk ölkə olacaq.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

Azərbaycan.- 2018.- 10 aprel.- S.6.